# “TEKNOFEST Azərbaycan” festivalında Elmlər Akademiyasının iştirakının nəticələrinə həsr olunmuş AMEA Rəyasət Heyətinin xüsusi iclası keçirilib

***İyunun 3-də AMEA-nın Əsas binasının Dairəvi akt zalında “TEKNOFEST Azərbaycan” festivalında Akademiyanın iştirakının nəticələrinə həsr olunmuş AMEA Rəyasət Heyətinin xüsusi iclası keçirilib.***





Tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti vəzifəsini icra edən, akademik Arif Həşimov 2022-ci ilin 26-29 may tarixlərində paytaxt Bakının Türkiyə və Azərbaycan dostluğu və qardaşlığının parlaq təzahürü olan “TEKNOFEST Azərbaycan” Aviasiya, Kosmos və Texnologiya festivalına ev sahibliyi etdiyini xatırladıb, festivalın ölkəmiz üçün əhəmiyyətini qeyd edib. Bildirib ki, bu mötəbər tədbirdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın nitqlərində ifadə olunan dostluq, qardaşlıq və strateji tərəftaşlıq mesajları bütün türk dünyası üçün yeni bir inkişaf mərhələsinin başlanmasından xəbər verir.

Akademik Arif Həşimov müasir zamanın çağırışlarına uyğun olaraq elm, texnologiya və innovasiyaların təşviq edilməsi, ölkədə texnoloji suverenliyin təmin olunmasına diqqətin yönəldilməsi məqsədi daşıyan festival çərçivəsində keçirilən sərgidə AMEA-nın xüsusi pavilyonla iştirak etdiyini diqqətə çatdırıb. Alim qeyd edib ki, tədbir çərçivəsində Türkiyə və Azərbaycanın nüfuzlu dövlət və hökumət nümayəndələri, hər iki ölkənin elm və təhsil ictimaiyyətini təmsil edən şəxslər, çoxsaylı şagird və tələbələr, sadə vətəndaşlar AMEA-nın pavilyonunu ziyarət etmiş, burada nümayiş olunan məhsullara böyük maraq göstərmişlər.

“TEKNOFEST Azərbaycan” ölkədə elmi-innovativ fəaliyyətin təşkili, türk dünyası ilə əməkdaşlıq əlaqələrinin inkişafı, elmin populyarlaşdırılması, texnoloji transfer və s. istiqamətlərdə Azərbaycan elmi qarşısında bir sıra yeni vəzifələr müəyyənləşdirmişdir”, – deyə bildirən akademik Arif Həşimov bugünkü tədbirin də məhz “TEKNOFEST”də Akademiyanın iştirakının nəticələrinə və qarşıda duran vəzifələrin müəyyənləşdirilməsinə həsr olunduğunu bildirib.

O, çıxışının sonunda AMEA-nın “TEKNOFEST Azərbaycan” festivalında iştirakı üzrə İşçi qrupa, eləcə də AMEA-nın sərgidə yüksək səviyyədə təmsil olunmasında zəhməti keçən hər kəsə Rəyasət Heyəti adından təşəkkürünü bildirib.

Daha sonra akademik Arif Həşimov AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə 75 illik yubileyi və Azərbaycan elminin inkişafında göstərdiyi xidmətlərə görə AMEA-nın Fəxri Fərmanını təqdim edib.

Tədbirdə AMEA-nın vitse-prezidenti, Akademiyanın “TEKNOFEST Azərbaycan” festivalında iştirakı üzrə İşçi qrupunun sədri, akademik Rasim Əliquliyev festivalda AMEA-nın iştirakının nəticələri və qarşıda duran vəzifələr haqqında hesabat məruzəsi ilə çıxış edib. O, Türkiyənin Samsun şəhərində keçiriləcək növbəti “TEKNOFEST”ə yaxın günlərdə hazırlıq işlərinin görülməsinə başlanılmasının nəzərdə tutulduğunu, Azərbaycan elminin gələn il keçiriləcək festivalda uğurla təmsil olunması üçün bütün imkanların səfərbər ediləcəyini diqqətə çatdırıb.

Tədbirdə, həmçinin AMEA İdarəetmə Sistemləri İnstitutunun baş direktoru, akademik Əli Abbasov, AMEA Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Misir Mərdanov, AMEA-nın akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutunun baş direktoru, akademik Vaqif Fərzəliyev, akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru, akademik Vaqif Abbasov, AMEA Radiasiya Problemləri İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü İslam Mustafayev, Biofizika İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Oktay Qasımov və Yüksək Texnologiyalar Parkının baş direktoru, iqtisad üzrə fəlsəfə doktoru Vasif Abbasov çıxış edərək AMEA-nın “TEKNOFEST Azərbaycan”da iştirakı ilə bağlı fikirlərini bölüşüblər. Çıxış edənlər sərgidə Akademiyanın elmi müəssisələrinin sərgidə yüksək səviyyədə təmsil olunduğunu qeyd edib, institut və təşkilatların alim və mütəxəssisləri tərəfindən hazırlanmış yüksək texniki göstəricilərə və geniş imkanlara malik innovativ həllərin nümayiş olunduğunu vurğulayıblar. Qeyd olunub ki, Azərbaycan və Türkiyənin sarsılmaz qardaşlığının bariz nümunəsi, tariximizin şanlı səhifəsi olan bu festivalı iki qardaş dövlətin daha da yaxınlaşmasına, inteqrasiyasına, texniki potensialının, müdafiə qüdrətinin artırılmasına xidmət göstərir.

Sonda AMEA Rəyasət Heyətinin “TEKNOFEST Azərbaycan” Aviasiya, Kosmos və Texnologiya Festivalında AMEA-nın iştirakının nəticələri haqqında” qərarı səsləndirilib.

Qərara əsasən, AMEA-nın “TEKNOFEST Azərbaycan” 5-ci Aviasiya, Kosmos və Texnologiya Festivalında iştirakı yüksək qiymətləndirilib.

Bundan başqa, iclasda AMEA-nın Gənc Alim və Mütəxəssislər Şurasının Fəaliyyət Planının təsdiq edilməsi, AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunda Eksperimental arxeologiya laboratoriyasının yaradılması, Lənkəran Regional Elmi Mərkəzinin direktoru aqrar elmlər doktoru Fərman Quliyevin 85 illik yubileyinin qeyd edilməsi, o cümlədən akademik Hüseyn Həsənovun 90, AMEA-nın müxbir üzvü Əlövsət Quliyevin 100, AMEA-nın müxbir üzvü Akif Musayevin isə 75 illik yubileyləri haqqında müvafiq qərarlar verilib. Həmçinin AMEA-nın Qafqazşünaslıq və İqtisadiyyat institutlarının strukturunda qismən, eləcə də AMEA-nın “Sosial elmlər” jurnalının redaksiya heyətinin tərkibində qismən dəyişikliklər edilib.

***Qabil YUSİFOĞLU,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 5 iyun.- S.5.